**Veysəl Seyfəl oğlu Əyyubov**
**Arif Məmmədhəsən oğlu Tağıyev**

**UOT-334.021:35; JEL: JEL: E10.**

# Müasir dövrdə Azərbaycan dövlətinin struktur siyasətinin strateji istiqamətləri və reallaşdırılması xüsusiyyətləri

***Xülasə***

*Məqalədə qaldırılan məsələlər müasir dövrdə milli iqtisadiyyatın strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və onun reallaşdırılmasını təmin edəcək struktur siyasətinin formalaşdırılması probleminə həsr edilmişdir. Burada əsas diqqət müasir dövrdə dövlətin struktur siyasətinin strateji istiqamətlərini özündə əks etdirən müvafiq dövlət sənədləri haqqında məlumatlara, prioritetlərin seçilməsi və onların reallaşdırılması mexanizmlərinə, əldə olunmuş nəticələrə verilmişdir.*

***Açar sözlər:*** *milli iqtisadiyyat, iqtisadiyyatın transformasiyası, dövlətin struktur siyasəti, qeyri-neft sektoru, struktur islahatları, strateji yol xəritəsi.*

## Giriş

Müasir tənzimlənən bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının transformasiyası daha da sürətlənmiş və dövlətin struktur siyasətinin bu transformasiyaya uyğunlaşması xüsusilə aktuallaşmışdır. Bu mənada dövlətin struktur siyasətinin iqtisadi situasiyaya uyğun formalaşmasının əsas şərtlərindən biri onun strateji istiqamətlərinin və reallaşdırılması mexanizmlərinin düzgün seçilməsi, onlardan səmərəli istifadə edilməsidir.

## Dövlətinin struktur siyasətinin strateji istiqamətləri

Mahiyyət etibarı ilə dövlətin struktur siyasəti onun sosial-iqtisadi siyasətinin tərkib hissəsi kimi müvafiq strateji və taktiki vəzifələrin yerinə yetirilməsinin mühüm vasitəsi olaraq dövlətin struktura və struktur dəyişikliklərinə münasibətidir [4]. Burada əsas məsələlərdən biri idarəetmə-təşkilati sahədə struktur dəyişikliklərin edlməsi, digəri isə struktur islahatları üçün iqtisadi-maliyyə resurslarının tapılması və onlardan daha səmərəli istifadə edilməsi problemləri ön plana çıxır. Dövlətin struktur siyasəti iqtisadiyyatın mürəkkəb, çox aspektli strukturuna uyğun olmalı və onun transformasiyasının əsas obyektiv tendensiyalarını nəzərə almalıdır. Dövlətin struktur siyasəti sistemli iqtisadi siyasətin bir hissəsi hesab olunduğu üçün onun struktur siyasəti investisiya, elmi-texniki, innovasiya, sənaye, aqrar, maliyyə, həmçinin regional siyasətlə fəal qarşılıqlı əlaqədə olan altsistem kimi nəzərdən keçirilir. "Milli iqtisadiyyatın xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi prioritetlərin seçilməsi və onların inkişaf etdirilməsi, dövlətin iqtisadi-sosial inkişaf siyasətinin və strategiyasının reallaşdırılması, ilk növbədə, ciddi struktur dəyişikliklərinin, yeniliklərinin həyata keçirilməsini zəruri edir. Bu isə, öz növbəsində, iqtisadi strukturun və onun prioritet sahələrinin təkmilləşdirilməsini, yenidən qurulmasını tələb edir" [5].

Hazırki mərhələdə Azərbaycan dövlətinin struktur siyasəti özünün növbəti fazasına – inkişaf etmiş bazar iqtisadiyyatı fazasına keçmişdir. Müstəqilliyin ilk illərindən və keçid dövründən fərqli olaraq kifayət qədər inkişaf etmiş Azərbaycanın müasir struktur siyasəti



©Veysəl Seyfəl oğlu Əyyubov i.e.d., prof., Arif Məmmədhəsən oğlu Tağıyev b/m.,Mingəçevir Dövlət Universiteti
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

həmin vaxtlarda həyata keçirilən struktur siyasətindən kifayət qədər fərqli olmaqla daha çox milli maraqlara və real iqtisadi potensiala, dünya standartları tələblərinə uyğunlaşan bir siyasətdir. Bu gün Azərbaycan dövlətinin struktur siyasətinin strateji istiqamətlərini ilk növbədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" və onun icra mexanizmləri kimi 6 dekabr 2016-cı il tarixli Fərmanla təsdiq olunmuş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 11 istehsal, qeyri-istehsal və infrastruktur sahələrinin strateji inkişaf istiqamətlərini nəzərdə tutan sənədlər toplusunda öz əksini tapmışdır [1;2]. Strateji Yol Xəritələri üzrə araşdırmalar göstərir ki, müasir və gələcək dövr üçün Azərbaycan dövlətinin struktur siyasətinin strateji istiqamətlərini əsasən aşağıdakı qlobal problemlər təşkil edəcəkdir:

- Birincisi, ölkənin neft-qaz və neft-kimya sektorunun daha da inkişaf etdirilməsi, dünya enerji bazarlarına daha aktiv inteqrasiya olunması və bu sahədə müvafiq struktur siyasətinin həyata keçirilməsi;
- İkincisi, ölkənin qeyri-neft sektorunun, xüsusilə sənaye və aqrar sektorun, emal sənayesinin, o cümlədən metallurgiya, maşınqayırma, kimya sənayesinin, energetika sənayesinin, telekommunikasiya, rabitə, kosmik və hərbi-sənaye kompleksinin, aqro-sənaye kompleksinin, xidmət sektorunun, xüsusilə nəqliyyat, yol təsərrüfatı və lizinq xidmətinin, turizmin, bazar infrastruktur elementlərinin və digər bu kimi sahələrin inkişaf etdirilməsi və bu sahədə müvafiq struktur siyasətinin həyata keçirilməsi;
- Üçüncüsü, ölkə əhalisinin həyat səviyyəsinin daha da yüksəldilməsi, onun məşğulluğunun tam təmin olunması, ölkədə təhsilin, səhiyyənin, sosial müdafiə və sosial təminat sisteminin, ümuniyyətlə ölkənin sosial infrastruktur sahələrinin inkişaf etdirilməsi, bu sahədə xidmətlərin dünya standartları səviyyəsinə yüksəldilməsi və bunlarla əlaqədar müvafiq struktur siyasətinin həyata keçirilməsi.

**Dövlətinin struktur siyasətinin strateji istiqamətlərinin reallaşdırılması**

Ölkədə peşə təhsilinin inkişafı, ölkənin istehsal kompleksinin peşə ixtisasları üzrə əmək resurslarına olan tələbatının tam və dolğun şəkildə ödənilməsi dövlətin iqtisadi siyasətinin əsas prioritetlərdən biri kimi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndə ayrıca bir istiqaamət üzrə öz əksini tapmışdır. Məhz bu məqsədlərin reallaşdırılması dövlətdən eyni zamanda həm yaxın, həm də uzunmüddətli dövrə istiqamətlənmiş struktur siyasətinin formalaşdırılmasını, onun strateji istiqamətlərinin və reallaşdırılması mexanizmlərinin müəyyən edilməsini tələb edir. Məlum olduğu kimi Azərbaycanın milli iqtisadiyyatının formalaşması, dirçəldilməsi və sürətli inkişafında neft-qaz sektoru müstəsna əhəmiyyət kəsb etmişdir. Son illərdə ölkənin neft bazarlarından asılılığını azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində dövlətin həyata keçirdiyi aktiv struktur siyasətə baxmayaraq hələ uzun illər Azərbaycanın milli iqtisadiyyatında neft-qaz sektoru müstəsna əhəmiyyət kəsb edəcəkdir. Odur ki, ölkənin neft-qaz ehtiyatlarının öyrənilməsi, mövcud yataqların aşkar edilməsi və onlardan səmərəli istifadə edilməsi, hasilatın artırılması və onların dünya bazarlarına çıxarılmasını təmin edəcək beynəlxalq boru kəmər layihələrinin həyata keçirilməsi Azərbaycan dövlətinin struktur siyasətinin əsasını



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təşkil edəcəkdir. Hazırda Azərbaycan üçün ən önəmli transmilli layihələrdən biri Xəzər dənizi hövzəsində hasil edilən təbii qazın Türkiyə və Avropa bazarlarına çıxarılmasını təmin edəcək Cənub Qaz Dəhlizi – TANAP – TAP boru kəmərinin başa çatdırılmasıdır. Layihənin başa çatdırılması nəticəsində ölkəyə hər il milyardlarla xarici valyutanın daxil olması gözlənilir ki, onun da müəyyən hissəsi qeyri-neft sektorunun inkişafına yönəldiləcəkdir.

Son illərdə dövlətin iqtisadi siyasətində qeyri-neft sektorunun inkişaf etdirilməsi konsepsiyası öz nəticələrini ölkənin təbii resurslarından istifadə edilməsində də göstərməyə başlamışdır. Belə ki, son illərdə emal, maşınqayırma, metallurgiya kimi sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində yaradılan texnoparklar, polad istehsalı sənayesi, tikini materialları sənayesi ölkənin digər təbii resurslarından, xüsusilə metal filizi, tikinti materialları ehtiyatlarından istifadəni, kənd təsərrüfatının inkişafı isə yerüstü təbii sərvətlərdən daha səmərəli istifadə etməni aktuallaşdırır. Aparılan araşdırmalar göstərir ki, 2006-2008-ci illərdə ÜDM-n tərkibində neft sektorunun xüsusi çəkisi təxminən 60 faizdən çox olduğu halda, 2009-cu ildən başlayaraq qeyri-neft sektorunun xüsusi çəkisi artmağa başlamışdır. Belə ki, 2010-cu ildə ÜDM-də neft sektorunun xüsusi çəkisi 55,6 faizə, qeyri-neft sektorunun xüsusi çəkisi isə 44,4 faizə bərabər olduğu halda, 2011-ci ildə bu mütənasiblik 51,7 faizin 48,3 faizə, 2012-ci ildə 47,3 faizin 52,7 faizə, 2013-ci ildə 43,4 faizin 56,6 faizə, 2014-ci ildə 39,0 faizin 61,0 faizə, 2015-ci ildə 32,3 faizin 67,7 faizə, 2016-cı ildə 30,2 faizin 69,8 faizə, 2017-ci ildə isə 37,2 faizin 62,8 faizə nisbətinə uyğun olmuşdur. Bu sahədə Azərbaycan dövlətinin uğurlu struktur siyasətinin nəticələrini iqtisadi fəaliyyət növləri üzrə ÜDM-in strukturu haqqında aşağıdakı cədvəl məlumatlarından da görmək olar.



**İqtisadi fəaliyyət növləri üzrə ÜDM strukturu (mln.manat/% )**

| | 2013 | | 2014 | | 2015 | | 2016 | | 2017 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | mln.manat | % | mln.manat | % | mln.manat | % | mln.manat | % | mln.manat | % |
| **Cəmi, o cümlədən** | 58182 | 100 | 59014,1 | 100 | 54380 | 100 | 60425 | 100 | 70135,1 | 100 |
| **Sənaye,** | 33898,1 | 45,4 | 32110,3 | 41 | 26369,4 | 32,9 | 32300,2 | 37,1 | 39562,8 | 40,1 |
| **Mədənçıxarma** | 26455,3 | 39,2 | 21980,9 | 34,3 | 16362,3 | 26,4 | 21192,0 | 30,7 | 27662,6 | 34,2 |
| **Emal sənayesi** | 7243,8 | 4,2 | 8071,6 | 4,7 | 7880,4 | 5,0 | 8899,4 | 4,9 | 9771,9 | 4,7 |
| **Sair sənaye** | 1999,0 | 2,0 | 2057,8 | 2,0 | 2126,7 | 1.5 | 2208,8 | 1,5 | 2128,3 | 1.2 |
| **Kənd təsərrüfatı** | 5244,6 | 5,4 | 5225,8 | 5,3 | 5635,3 | 6,2 | 5632,4 | 5,6 | 6580,0 | 5,6 |
| **Elektrik enerjisi** | 1105,5 | 1,9 | 1062,3 | 1,8 | 761,3 | 1,4 | 785,5 | 1,3 | 701,4 | 1,0 |
| **Su təchizatı** | 58,2 | 0,1 | 118,0 | 0,2 | 54,3 | 0,1 | 120,8 | 0,2 | 140,2 | 0,2 |
| **Tikinti** | 6749,1 | 11,6 | 7435,8 | 12,6 | 6525,6 | 12,0 | 6344,6 | 10,5 | 4894,4 | 9,5 |
| **Ticarət** | 4130,9 | 7,1 | 4662,1 | 7,9 | 5883,6 | 9,9 | 6223,8 | 10,3 | 7294,0 | 10,4 |
| **Nəqliyyat və logistika** | 2560,0 | 4,4 | 2655,6 | 4,5 | 3262,8 | 6,0 | 4048,5 | 6,7 | 4769,2 | 6,8 |
| **Turizm** | 1047,3 | 1,8 | 1298,3 | 2,2 | 1305,1 | 2,4 | 1450,2 | 2,4 | 1616,1 | 2,3 |
| **İnformasiya və rabitə** | 989,1 | 1,7 | 1062,3 | 1,8 | 1087,6 | 2,0 | 1087,7 | 1,8 | 1122,2 | 1,6 |
| **Sosial və digər xidmətlər** | 9550,9 | 15,9 | 10150,4 | 17,2 | 10712,9 | 19,7 | 10574,4 | 17,5 | 11502,1 | 16,4 |
| **Xalis vergilər** | 3898,2 | 6.7 | 4426,1 | 7,5 | 4839,8 | 8,9 | 4894,4 | 8,1 | 5119,9 | 7,3 |

Mənbə: www.stat.gov.az saytının məlumatalrına əsasən müəlliflər tərəfindən hazırlanmışdır.

Cədvəldəki statistik məlumatlardan göründüyü kimi qeyri-neft sektorunun inkişaf etdirilməsi dövlətin prioritet siyasətinin tərkib hissəsi olmaqla son illərdə daha konkret sahələri əhatə etməklə davam etdirilir. Xüsusilə 2013-cü ilin İKT ili, 2014-cü ilin "Sənaye ili", 2015 -ci ilin "Kənd təsərrüfatı ili" elan olunması, sənayenin və kənd təsərrüfatının inkişafı üzrə müvafiq

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Dövlət Proqramlarının qəbul olunması Azərbaycanda qeyri-neft sektorunun, ilk növbədə yeni texnologiyalara və elmtutumlu məhsul istehsalına istiqamətlənmiş emal sənayesinin inkişaf etdirilməsinə əsaslı təsir göstərməkdədir. Son illərdə yeni sənaye-texnologiya parklarının, sənaye inkubatorlarının, aqro-sənaye parklarının, polad sənayesi kompleksinin, yol təsərrüfatı və logistika infrastrukturunun və digər xidmət sahələrinin yaradılması və inkişaf etdirilməsi ölkənin struktur siyasətində strateji əhəmiyyət kəsb edən məsələlər olmuşdur.

**Nəticə**

Araşdırmalar göstərir ki, dövlətin daha uzun müddətə istiqamətlənmiş struktur siyasətinin formalaşdırılması, təkmilləşdirilməsi və reallaşdırılmasında Strateji Yol Xəritələrində nəzərdə tutulmuş konkret məqsədlər xüsusi əhəmiyyət kəsb edir. Nəticədə: neft-qaz sektorunun, o cümlədən onun bazasında neft-kimya sənayesinin modernləşdirilməsi və inkişaf etdirilməsi; ağır sənayenin, maşınqayırma və emal sektorunun modernləşdirilməsi və inkişaf etdirilməsi;qeyri-neft sektorunun daha da şaxələndirilməsi, modernləşdirilməsi və inkişaf etdirilməsi; aqrar sektorun inkişafı hesabına onun ixrac potensialının yüksəldilməsi və ölkənin ərzaq təhlükəsizliyinin təminatının gücləndirilməsi; qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi istiqamətində dövlət tənzimlənməsinin effektliyinin daha da artırılması; sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın, kiçik biznesin dövlət tərəfindən dəstəklənməsinin daha da gücləndirilməsi və effektliyinin artırılması; ölkənin infrastruktur sektorunun, o cümlədən istehsal, xidmət, sosial, bazar infrastrukturunun əhatə dairəsinin genişləndirilməsi, modernləşdirilməsi və inkişaf etdirilməsi; əhali gəlirlərinin və həyat səviyyəsinin, təhsil və səhiyyə təminatının , peşə təhsili və məşğulluğunun yüksəldilməsi; xarici iqtisadi münasibətlərin, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi və inkişaf etdirilməsi, o cümlədən ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən digər məsələlər dövlətin struktur siyasətinin prioritet istiqamətləri kimi qəbul olunmuş və onların reallaşdırılması istiqamətində konkret tədbirlərin görülməsinə başlanmışdır.



## Ədəbiyyat

1. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri". Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli Sərəncamı.
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivliyi üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli sərəncamı
3. Azərbaycan espublikası Prezidentinin 26 dekabr 2016-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı").
4. Musayeva C.Q., Tağıyev A.M. Azərbaycan iqtisadiyyatı. Ali məktəblər ücün dərs vəsaiti. Bakı, "Avropa" nəşriyyatı. 2018.
5. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. Bakı, Avropa nəşriyyatı, 2014.
6. www.azstat.gov.az

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Вейсал Сейфал оглу Эйюбов***
***Ариф Мамедхасан оглу Тагиев***

***Стратегические направления в политической структуре современного Азербайджанского государства и специфические особенности их реализации***

***Резюме***

*Статья посвящена основным проблемам формирования структурной политики государства на современном этапе и определению ее основных стратегических направлений по реализацию развития национальной экономику страны. Здесь в основном обращено внимание на определения стратегических направлений структурной политики на основе соответствующих государственных программ и документов, выбору приоритетов, механизмам и результатам их реализаций.*

***Ключевые слова:*** *национальная экономика, трансформация экономики, структурная политика государства, ненефтяной сектор, структурные реформы, стратегическая дорожная карта.*

***Veysal Seyfal Ayubov***
***Arif Mammadhasan Tağıyev***

***Strategic directions in the political structure of the modern Azerbaijan state and specific features of their implementation***

***Abstract***

*The article is devoted to the main problems of the formation of the structural policy of the state at the present stage and the definition of its main strategic directions for the implementation of the development of the national economy of the country. Here, attention is mainly drawn to the determination of the strategic directions of structural policy on the basis of the relevant state programs and documents, the selection of priorities, the mechanisms and the results of their implementation.*

***Keywords:*** *national economy, economic transformation, structural policy of the state, non-oil sector, structural reforms, strategic roadmap.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 03.06.2019.***
***Çapa qəbul olunub: 10.06.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*